## YUBİLEY

## ADIGÖZƏLOV ARİF İSFƏNDİYAR oğlu – 70-i



Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun kollektivi Adıgözəlov Arif İsfəndiyar oğlunu 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir və ona həyatda ən böyük nemət olan cansağlığı və işlərində uğurlar arzulayır.

Arif müəllim Azərbaycan Politexnik İnstitutunun "Çay qurğuları və su elektrik stansiyalarının tikintisi" kafedrasını bitirdikdən sonra mühəndis –hidrotexnik ixtisası üzrə çalışmış və əmək fəaliyyətində pillə-pillə yüksəlmişdir.

A.Adıgözəlov keçən əsrin 80-ci illərinin birinci yarısında «Araz çayının su ehtiyatlarından kompleks istifadə sxemi»nə əsasən, sərhəd Araz çayı üzərində tikiləcək Xudafərin və Qız-Qalası su qovşaqlarının texniki layihələri yerinə yetirilməsində yaxından iştirak etmişdir. Bu layihələr keçmiş Sovetlər Birliyinin, həmçinin İran İslam Respublikasının səlahiyyətli təşkilatları tərəfindən baxılıb təsdiq edilmişdi.

1990-2004-cü illər ərzində «Bakıhidrolayihə» institutu tərəfindən hazırlanmış Azərbaycan ərazisində Tovuz, Mil, Vayxır, Arpaçay, Ordubad, Litvada Kayşador, Mərakeşdə Kudial-El Porfa, su qovşaqlarının layihələri, Vyetnam Respublikasında Txak-Ba su-elektrik stansiyasının avadanlıqlarının modernləşdirilməsi ilə əlaqədar hazırlanmış layihənin yüksək keyfiyyətlə sifarişçiyə təqdim olunmasında Arif müəllimin böyük əməyi olmuşdur.

A.Adıgözəlovun hidrotexnika sahəsində fəaliyyəti Respublikamızda və onun hüdudlarından kənarda yüksək qiymətləndirilmişdir. O 2014-cü ildə MDB ölkələrinin "Əməkdar energetiki" fəxri adı ilə təltif olunmuşdsur.

Arif müəllim tələbkar və diqqətli olmaqla yanaşı, öz həmkarları ilə səmimi münasibət qurmağı bacaran, optimist bir insan, hidrotexnika sahəsində görkəmli mütəxəssis kimi tanınmışdır.

Redaksiya heyəti Arif müəllimi yubiley münasibəti ilə ürəkdən təbrik edir, ona cansağlığı və elmi-praktiki işlərində yeni yaradıcılıq nailiyyətləri arzulayır.

*Redaksiya heyyəti*